# Daşkəsəndə "Şəhərsalma və Memarlıq İli" çərçivəsində gənclərlə görüş keçirilmişdir

**Daşkəsənin Heydər Əliyev Mərkəzində "Şəhərsalma və Memarlıq İli" çərçivəsində gənclərlə görüş keçirilmişdir.**

Gənclər arasında şəhərsalma və memarlıq sahəsinə marağın artırılması, müasir urbanizasiya prosesləri, dayanıqlı inkişaf prinsipləri və milli memarlıq irsinin qorunması istiqamətində maarifləndirmə işinin gücləndirilməsi məqsədilə keçirilən görüşdə diqqətə çatdırılmışdır ki, ölkəmizdə həyata keçirilən genişmiqyaslı quruculuq və abadlıq işləri regionların sosial-iqtisadi inkişafına mühüm töhfələr vermişdir. Bildirilmişdir ki, müasir şəhərsalma yalnız infrastrukturun yenilənməsi deyil, həm də ekoloji tarazlığın qorunması, estetik mühitin formalaşdırılması və vətəndaşların rahat yaşayışının təmin edilməsi deməkdir.

Sonra fəal gənclərdən  Günay Mirzəzadə və Türkanə İsmayılova çıxış edərək ictimai işlərin səmərəli təşkili, yaşıllaşdırma və innovativ memarlıq məsələlərinin həlli ilə bağlı fikir və təkliflərini səsləndirmişlər.

Görüş zamanı gəncləri maraqlandıran suallar cavablandırıldıqdan sonra müzakirə olunan mövzu ilə bağlı videoçarx nümayiş etdirilmişdir.

***S.YUNİSOĞLU,***
***"Azərbaycan"***

Azərbaycan. - 2026.- 4 mart (№41).- S.11.